УДК 82-3.512.162.
КВТ 83.3(5 Aze).

*Könül HACIYEVA**
*(Azərbaycan)*

*AMEA,*
*Ədəbiyyat İnstitutu*

# Təsəvvüf simvolikasının Xaqani əsərlərindəki təcəssümü

***Xülasə***

*Məqalədə sufizm cərəyanının ədəbiyyata təsiri, şairlərin təsəvvüf təliminin yayılmasındakı rolundan bəhs edilmişdir. XII əsr Azərbaycan şairi Xaqani Şirvaninin sufizmə münasibəti, bu dini-fəlsəfi təlimlə bağlı görüşləri nəzərdən keçirilmişdir. Bundan əlavə, şairin sufi obrazı ilə bağlı fikirlərinin, yaratdığı sufi obrazlarının təhlilinə yer verilmiş, eyni zamanda Xaqaninin təsəvvüf tarixində mövcud olmuş məşhur sufilərə münasibəti araşdırılmışdır. Xaqani əsərlərindən gətirilən nümunələr üzərində təhlillər aparılaraq şairin sufi baxışlarına dair mülahizələr irəli sürülmüşdür. Xaqaninin şeirlərində istifadə etdiyi təsəvvüfi istilahlar və onların işlənmə xüsusiyyətləri üzərinə diqqət yönəldilmişdir. Araşdırma zamanı şairin yaradıcılığında mövcud olan təsəvvüf simvolikasının poetik təcəssümünü özündə əks etdirən misallara müraciət edilmişdir. Sufi rəmzlərinin Xaqaninin bədii-estetik təqdimindəki poetik səciyyəsi, təsəvvüfi anlam daşıyan ifadələrin Xaqaninin sənət yozumundakı ədəbi-fəlsəfi siqləti təhlilə cəlb edilmişdir. Təhlil və araşdırmalar bu nəticəyə gəlməyə imkan verir ki, sufizm ideyaları bir çox sənətkarın ictimai-fəlsəfi fikirlərini dilə gətirməsində vasitə rolunu oynamışdır. Xaqani sırf sufi şairi olmasa belə, təsəvvüfi ideyalarla zəngin ədəbi irsə sahib sənətkarımızdır. O, sufilik, sufi həyat tərzi və təsəvvüfi istilahlar barədə tam məlumatlıdır. Sufiliyin əsas şərtlərini yaxşı bilən sənətkarın qəlbin zənginliyi məsələsini önə çəkərək yaradıcılığı boyu irəli sürdüyü tövsiyələrini də bu fikir ətrafında qurduğunu görmək mümkündür. Xaqani yaradıcılığının daşıdığı təsəvvüf simvolikasının məna və məzmun rəngarəngliyi, bədii-estetik tutumu, elmiliyi, dini-irfani məsələləri əks etdirməsi və s. baxımdan tədqiqat üçün olduqca maraqlı materiallarla zəngin olduğu qənaətinə gəlirik.*

***Açar sözlər:*** *Xaqani, təsəvvüf, şair, sufi, simvolika*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent. AMEA, Ədəbiyyat İntitutu.
konulhaciyeva75@gmail.com, https://orcid.org/0000-0001-5335-912X



Archive of SID
www.SID.ir

## *Giriş*

Sufizmin yarandığı gündən geniş vüsət tapmasına qədər olan uzun yolda şairlərin iştirakı və əməyi böyük olmuşdur. Onların bir qismi təsəvvüf ədəbiyyatının yaranmasında bilavasitə iştirak etmiş, bir qismi isə bu prosesdən sadəcə təsirlənərək təsəvvüfi görüşlərə, bu fikir təmayülünün simvolikasına əsərlərində yer vermişlər. Məhz bu baxımdan təsəvvüf öz ifadəsini bu və ya digər şəkildə ədəbiyyatda tapmış fəlsəfi-irfani bir doktrina olaraq daim ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Sufizm cərəyanının əsas mahiyyəti haqqında dolğun təsəvvür yaratmaq üçün bu fikrə nəzər salmaq yerinə düşər: "Sufizm islamda içdən – daxildən gəlmə, qəlbən-ruhən işıqlanma-intuitiv yolla, əxlaqi – mənəvi paklıqdan keçərək Tanrı ilə bilavasitə ünsiyyəti imkanlı bilən, ən mühümü insana öz ilahi mənşəyinə inam hissi təlqin edən xüsusi dini-fəlsəfi dünya duyumudur."[1] Sufizm təriqəti yarandıqdan sonra tədricən əhatə dairəsini genişləndirməyə başladı. Onun digər müsəlman ölkələri ərazisində yayılıb təşəkkül tapmasına bir sıra mühüm amillər təsir etdi. Bu dövrdən etibarən şairlik istedadı olan sufilər öz düşüncələrini poeziyaya köçürməyə başladılar. Onlar təsəvvüf rəmz və istilahlarından istifadə edərək fikirlərini təlqin edir və yayırdılar. Hücum və dağıdıcı yürüşlərdən təngə gəlmiş insanlar kimə inanacaqlarını, mənəvi nicat üçün kimə üz tutacaqlarını bilmirdilər. Bu səbəbdən onlar xanəgahlara meyl etməyə başladılar. Belə bir şəraitdə şəriətlə təriqət də bir birinə yaxınlaşdı. Həmin dövrün ictimai-mədəni mənzərəsi tədqiqatçılar tərəfindən aydın təsvir edilir: "Sufi şairi üçün şeir həsr edəcəyi obyekt artıq mövcud idi, bundan əlavə, bu kütlənin indi ona daha çox ehtiyacı var idi. Belə ki, o, müflisləşmiş, talanmış, incidilmişdi və hər hansı təskinedici söz eşitmək istəyirdi. Sufi şairi dinləyicilərinə məhəbbətdən danışır, birləşməyi təlqin edir, onları qarşılıqlı dayaq-dəstək olmağa çağırırdı, heyvani fərdiçiliyin, həyat qoruyuculuğunun yerinə ümumi maraqları qoyurdu."[2] Burada insanları cəlb edən ən başlıca faktor isə "eşq" amili idi. Şairlərin bəhs etdiyi mövzular bu amil ətrafında qurulurdu.

Müşahidələr göstərir ki, dövrün hökmdarları da əksər hallarda təsəvvüfçü şairləri dəstəkləmiş, hətta onlardan öz məqsədlərinə müvafiq yararlanmışlar. M.F.Köp-

---

[1] Rüstəmova A. Seçilmiş əsərləri. II c., Bakı, "Elm", 2014, s.536

[2] Бертельс Е.Э. Суфизм и суфийская литература. М осква, 1965, s.53



Archive of SID

www.SID.ir

rülünün bu məsələyə münasibəti haqqında oxuyuruq: "Səlcuqilər və Xarəzmşahlar dövründə müsəlman türk məmləkətlərinin hər tərəfində və xüsusən də müsəlman İran təsirlərinin ən çox hiss edildiyi böyük mədəni şəhərlərdə təsəvvüf cərəyanı çox quvvətli bir şəkildə yerləşmişdi...Ona kor-koranə itaət edən minlərcə müridə malik olan böyük şeyxlər mühüm siyasi rollar oynaya biləcəyi səbəbilə, hökmdarlar onları yerinə görə gah cəbr və təhdid, gah da təltif usulu ilə idarəetməyə cəlb edirdilər."[1] Tədqiqatçının da qeyd etdiyi kimi, Səlcuqlar dövründə təsəvvüf şeiri özünün yüksək inkişaf mərhələsində idi və bu poeziyanın gözəl nümunələri yaranmağa davam edirdi. Azərbaycan ədəbiyyatının zəngin poetik irsə malik parlaq simalarından biri, Şərq intibah şeirinin yaradıcılarından olan Xaqani Şirvani də məhz bu dövrün yetirməsi idi.

## *Xaqaninin təsəvvüfə münasibəti*

Zəngin və ziddiyyətli keçən həyatı boyunca istər hökmdarlardan, istərsə də onu əhatə edən digər insanlardan şeirə bəslənən ehtiramla yanaşı biganəlik, öz sənətinə qarşı paxıllıq, xəbislik də görən şair bu barədə, eləcə də dünyada qarşılaşdığı ədalətsizliklər haqqındakı düşüncə və görüşlərini ictimai-fəlsəfi şeirlərində, təsəvvüfi anlam daşıyan bir sıra əsərlərində ifadə etməyə çalışmışdır. Xaqani Şirvaninin keçməkeşli sənət yoluna işıq tutmaq baxımından da bu fəlsəfi-irfani cərəyanın özünəməxsus yeri vardır. Şairin tam olaraq sufi baxışlarını özündə əks etdirən əsəri yoxdur. Xaqaninin fəlsəfi görüşlərinin araşdırılması ilə məşğul olmuş tədqiqatçı alim S.Rzaquluzadə bu sahədə qarşılaşdığı çətinliklərdən bəhs edərək yazır: "Xaqaninin ayrıca xüsusi fəlsəfi əsərinin olmaması, fəlsəfi ifadələrinin ayrı-ayrı şeirlərdə səpələnməsi onun fəlsəfi baxışlarının öyrənilməsini mürəkkəbləşdirir."[2] Qeyd etmək lazımdır ki, şairin "Şiniyyə" qəsidəsi, "Töhfətül-İraqeyn" poeması və o cümlədən bir çox qəsidə və rübailəri məhz fəlsəfi əsərlərdir. Xaqaninin fəlsəfi görüşləri bu əsərlərdə çox gözəl şəkildə ifadə olunmuşdur. Şairin daxili dünyasını, fikir-düşüncə aləmini, fəlsəfi ideyalarını anlayıb, elmi şəkildə analiz edib oxucuya çatdırmaq üçün ilk növbədə fars dilini mükəmməl bilmək və şairin ədəbi üslubuna, yazı tərzinə yaxşı bələd olmaq lazımdır. Bu işdə mövcud olan çətinliklər isə şairin "fəlsəfi əsərinin ol-

[1] Köprülü M.F. Türk Edebiyatında ilk mutasavvıflar .2016,s.286

[2] Рзакулизаде С.Д. Общественно-политические и философские взгляды Хагани Ширвани. Издательство АНА ССР, Баку, 1962, с.83



Archive of SID

www.SID.ir

mamasından" deyil, Xaqaninin poetik dilinin kifayət qədər mürəkkəb olmasından irəli gəlir. Daha öncə də qeyd etdiyimiz kimi, Xaqani sırf sufi şairi olmasa belə, təsəvvüfi ideyalarla zəngin ədəbi irsə sahibdir. Şair sufilik, sufi həyat tərzi və təsəvvüfi istilahlar barədə tam məlumatlıdır. Bir intibah dövrü şairi kimi, bütün bunlar haqqında dolğun təsəvvürü olduğunu əsərlərindən görmək mümkündür. Məhz bu baxımdan Xaqaninin əsərlərinin sadə oxucu tərəfindən tam olaraq anlaşılması o qədər də asan deyil. Görkəmli şərqşünas Y.E.Bertels bu məsələni şərh edərək yazır: "Sxolastik elmin fərqli məfhumlarından bu cür istifadə olunması Xaqaniyə daha çox xarakterikdir ki, bu da onun şeirlərini az anlaşılan edir."[1] Xaqani əsərlərindəki hikmət və didaktika da dünyanın sufi təfəkkürlə dərkinə bağlı idi. Mərifət qatına çatmağın əsasında nəfsi dəf etmək, nəfslə mübarizə durur. Buna nail olan insan dünyaya, axirətə, sevgiyə, ölümə, bir sözlə, hər bir şeyə başqa nəzərlərlə baxmağa başlayır. İranlı tədqiqatçı Səccadi əslən azərbaycanlı olan böyük Şərq filosofu Şihabəddin Sührəvərdinin bu barədə söylədiyi fikrini misal gətirir:

وشيخ شهاب الدين سهروردی در رسالهُ بستان القلوب فصل پنجم می نويسد:
"... شناخت حق تعالی موقوف است برشناخت نفس خود"[2]

(Şeyx Şihabəddin Sührəvərdi "Bustan-ül-qülub" risaləsinin beçinci fəslində yazır: "Haqq taalanı tanımağı bacarmaq öz nəfsini tanımaqla baş verir).

Nəfsini tanımaq isə özünü tanımağa bərabərdir. İnsana daxilindəki tamah və hərisliyə qalib gəlmək müyəssər olarsa, o, mərifətə doğru böyük addım atmış olar. Sufilərin də başlıca qayəsi məhz bunun öhdəsindən gələrək saflaşmaqdır, Tanrını təmizlənmiş qəlblə sevməkdir, dərin və pak ilahi sevgi ilə haqqa qovuşmaqdır. Bütün bu məqamlarla bağlı fikirlər, mülahizələr sufi ədəbiyyatında, o cümlədən də Xaqani yaradıcılığında az və ya çox dərəcədə öz əksini tapmışdır. Tarixçi alim S.Aşurbəyli sarayla müəyyən mənada əlaqəsi olan Xaqaninin məhz mənəvi məsələlərə toxunduğu üçün məşhurlaşdığını vurğulayır. Bu barədə oxuyuruq: "Xaqani öz əbədi şöhrətinə görə mədhiyyələrindən daha çox, qəlbə toxunan, emosional lirik şeirlərinə borcludur."[3] Şair öz şeirlərinin hikmət və nəsihət səciyyəsi daşımasını sufilərlə sıx ünsiy-

[1]Бертельс Е.Э. История персидской и таджиксокй литера туры, Избранные труды. Т. 1. Москва, 1960, с.508

[2] 1372،دکتر سيد ضياءالدين سجادی،مبانی عرفان وتصوف،تهران s.12

[3] Ашурбейли С. *Государство Ширваншахов.* Баку, 1983, с.221



Archive of SID

*www.SID.ir*

yəti, təsəvvüf ədəbiyyatına yaxından bələd olması ilə izah edirdi. Xaqani təsəvvüfi mövzuda yazdığı əsərlərinin böyük bir qismini yaşamının son dövrlərində qələmə almışdır. Lakin onun şeirlərində heç də bəzi mənbələrdə qeyd edildiyi kimi həyata nifrət və ikrah hissi əks olunmamışdır. Sadəcə zərif sənətkar ruhu bir çox məsələlərdən incik düşmüş həssas şair dünyada və yaşadığı cəmiyyətdə qarşılaşdığı yarıtmaz hallara, gördüyü mənəvi eybəcərliklərə narazılığını bildirməyi lazım bilmiş, bunu özünün sufi-mistik baxışları fonunda həyata keçirərək Azərbaycan təsəvvüf şeirinə daha artıq didaktik səciyyə qazandırmışdır. Məhz əsərlərindəki həmin o didaktika və hikmət təlqininə görə Xaqaninin Dədə Qorquda bənzədildiyinin şahidi oluruq. Görkəmli xaqanişünas alim Q.Kəndli bu məsələyə münasibət bildirərək yazır: "...O biri yandan böyük və müdrik el ağsaqqalıdır. İş və diləkləri ilə eli xoşbəxtlik və uğurluğa doğru səsləyən qoca Dədə Qorqudu yada salır."[1]Xaqaninin qəsidələri bu baxımdan özünün təsəvvüfi məzmunu ilə seçilən dəyərli poeziyası nümunələridir. Təsəvvüfə görə insan özünü kəşf etmək üçün özünü tərk etməlidir, yəni, özündən yüksəyə ucalmağı bacarmalıdır ki, bu da az şəxslərə nəsib olur. Təsəvvüfdə sufilərin çatmaq istədiyi əsas hədəf olan "Fəna fillah" qatına da bütün yuxarıda deyilənlərin öhdəsindən gəlməklə qovuşmaq olar. Əslində söhbət "Uluhiyyül-əsl"in "Vücudi-mütləq"ə yetişməsindən gedir. Bu mənada təsəvvüf həm də bir növ özünü tanıma təlimidir. Məhz bundan sonra o, başlanğıcını kəşf etməyə, haqqa yaxınlaşmağa üz qoyur. Xaqani böyük eşqin uğrunda maddilikdən çıxıb xəyala dönən varlığının öz sevgi mənbəyi ilə görüşməyə can atmasının verdiyi ruhi ovqatı və bundan doğan təəssürat halını bu cür ifadə edir:

بی زحمت تو با تو وصالی است مرا
فارغ ز تو با تو حسب حالی است مرا
در پیش خیال تو خیال است تنم
پیوند خیال با خیالی است مرا[2]

(Sən zəhmət çəkmədən mən sənin vüsalına qovuşuram. Sən olmadan da sənlə həsbi-hal (söhbət) edirəm. Varlığım sənin xəyalının qarşısında bir xəyaldır. Xəyallarımız bir-birinə qovuşmuşdur.)

Xaqaninin bu rübaisi ustad alim və tərcüməçi M. Sultanovun tərcüməsində:

[1] Kəndli-Herisçi Q. *Xaqani Şirvani(həyatı, dövrü, mühiti).* Bakı, "Elm", 1988.
[2] https://ganjoor.net/khaghani/divankh/robaeekh/s.1 23.08.18



Archive of SID
www.SID.ir

*Zəhmətsiz nəsibim olur xoş vüsal,*
*Sənsiz soruşuram səndən hal-əhval.*
*Xəyalın önündə xəyalə döndüm,*
*Nə gözəl birləşir xəyalla xəyal.*[1]

Şeirin təsəvvüfi düşüncələrlə yazıldığı şübhə doğurmur. Buradakı sufi dünyagörüşü özünü qabarıq göstərməkdədir. Şairin "həsbi-hal" etdiyi onun ilahi başlanğıcıdır. Bu ilkin mənəvi qaynağa doğru yol aldığını şair obrazlı şəkildə ifadə etmişdir. O, digər sufi şairlər kimi, "tən mülk"ünü tərk edərək əbədilik aləmini seyrə çıxmasını dilə gətirmişdir. Bir sözlə, Xaqani ruhun seyrinin, qəlbin həqiqət axtarışının poetik şəkildə təsvirini vermişdir. Şairin sufi görüşlərindən doğan qənaətləri onun daxili aləmini müəyyən qədər tanımamıza imkan yaradır. Əsərlərində tutduğu irfani-filosofanə mövqe eyni zamanda, təsəvvüfçü mütəfəkkirlərin şairin düşüncə tərzinə, yaradıcılığına təsirindən də xəbər verir. Əks təqdirdə onun şeirləri özündə bu qədər dərin mövzuları, geniş əhatəli qlobal məsələləri, düşündürücü fəlsəfi-hikmətanə məqamları barındırmazdı. Bundan əlavə, Xaqani hadisələrə münasibətdə öz şüur və təfəkkürünü tamamilə sufiyanə düşüncələrə təslim etmir. O, baxışlarında ayıq-sayıq və aydın mövqe nümayiş etdirir. Sufilərin keçdiyi uzun və mürəkkəb yolu, adladığı mərhələləri bütün incəliklərinədək bilən və bu məqamlardan obraz yaratmağa çalışan şair qələmə aldığı əsərlərdə təsəvvüf simvolikasını həmin obrazlar üzərində qurur. Xaqani sufilərdən bəhs etdiyi bir rübaisində yazır:

عشق تو بکشت عالم و عامی را
زلف تو برانداخت نکونامی را
چشم سیه مست تو بیرون آورد
از صومعه بایزید بسطامی را[2]

(Sənin eşqin alimi də cahili də öldürdü, sənin zülfün şöhrəti yerlə bir etdi. Sənin o xumar qara gözün Bayazid Bistamini öz zahid hücrəsindən çıxardı)

İlk baxışdan dəli-divanə aşiqin bir gözələ bəslədiyi dünyəvi eşqin ifadə olunduğu təsəvvürünü yaradan bu rübai əslində ilahi eşqin tərənnümünü əks etdirir. Şair nəfsin insanoğlunu bədbəxtliklərə düçar etdiyini vurğulamaq istəmişdir. Təsəvvüf simvolikasına görə, "zülf" qaranlıq, kəsrət əlaməti, maddi nemətlərə uymanın, bir

[1] Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004, s.544
[2] https://ganjoor.net/khaghani/divankh/robaeekh/s.5



Archive of SID
www.SID.ir

sözlə nəfsin simvoludur. Şairin demək istədiyi odur ki, insanın nəfsi onun ömür boyu qazandığı yaxşı adı puç edə bilər. "Göz" isə təsəvvüf ədəbiyyatında iki cür mənalandırıla bilər. Batini göz həqiqəti dərk etmək üçündür, zahiri göz isə dünyanı, onun gəlib keçici nemətlərini tanımağa xidmət edir. Ümumilikdə isə insan həqiqi olanı da, fani olanı da gözlə görüb müəyyən edir. Haqqı bu yolla tanımaq imkanı əldə edir. Rübaidəki "xumar gözün Bistamini guşənişinlikdən çıxarması" deyimi bir tərəfdən fani dünyadakı maddi varlıqlara vurğunluğu, bağlılığı simvolizə edirsə, digər tərəfdən həqiqətin dərk edilməsinə, sufinin haqqa bir az da yaxınlaşmasına işarədir. Belə ki, sufilik zahidlik deyildir. Sufi Yaradanın xatirinə yaradılanı sevəndir və buna həm daxili, həm də zahiri görmə qabiliyyəti ilə nail olur. Nümunə gətirdiyimiz rübai nəticə etibarilə, bir sufi üçün ilahi eşqin yolundakı ən böyük və təhlükəli maneənin nəfsdən ibarət olduğunu ifadə edir.

## *Xaqaninin təsəvvüf anlayışında "mey" və "xərabat məfhumları*

Təsəvvüf şeirində çox işlənən "mey" obrazı Xaqani poeziyasında da öz "missiyasını" davam etdirməkdədir. Təsəvvüf simvolikasında "Tanrı varlığının dərki və ondan doğan sevinc və vəcd əvəzedilməz mənəvi şərab" kimi başa düşülür. Mey isə "Haqq vergisi, vacibül-vücuda bəslənilən məhəbbət və eşq olaraq anlaşılır".[1] Beləliklə də qəlbində güclü Tanrı sevgisini daşıyan sufi aşiq həqiqəti və Haqqı dərk etməkdən doğan məstliyi yaşayır. Onun idrakı ilahi sevginin verdiyi sərməstliyə bürünmüşdür.

*Yetir meylə dolu saxsı qabı torpaq dodağıma,*
*Daşa vur cami-Cəmşidi ki, camdan, Cəmdən azadıq.*
*Tapıbdır zinət ulduzdan, fələk bir taqü tarəmdir,*
*Xərabat əhliyik biz, taq ilə tarəmdən azadıq.*[2]

Xaqani qənaətin və əbədiliyin rəmzi olan "saxsı qab"la "mey" içmək, yəni, ilahi hikmətə, mərifətə yiyələnmək üçün nəfsdən uzaq olmağı poetik obrazlarla dilə gətirir. Bu zaman insanın torpaqdan yaradıldığını da vurğulamağı unutmur. O, mərifət elmi ilə dolu həmin "saxsı qab"ı Cəmşidin camına qarşı qoyur və bir sufinin bü-

[1] Y.Babayev , Təriqət ədəbiyyarı: sufizm, hürufizm.Bakı, 2007,s.48.
[2] Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004, s.391



Archive of SID
www.SID.ir

tün dünyəvi maraqlardan uzaq və azad olduğunu vurğulamış olur. Şair "taq ilə tarəm" deyərkən, göy üzündəki ulduzları nəzərdə tutur. Şeirdə xərabat əhli olanların səma cisimlərinə, ulduzların düzülüşünə məhəl qoymayıb bu düşüncələrdən azad olduğu, özlərini yalnız Haqqı tanımağa, Tanrıya qovuşmağa yönləndirdiklərindən bəhs edilir. Burada təsəvvüf simvolikasının digər bir ünsürü də özünü göstərir ki, o da xərabat anlayışıdır. Xərabat adlanan yer sufilərin fikir mərkəzi olmuşdur. Cəmiyyətdəki ədalətsizliklərdən, dünyadakı haqsızlıqlardan baş götürüb getdikləri, ilahi həqiqəti aramaq üçün üz tutduqları məkana çevrilmişdir. Onlar üçün xərabat fikir və düşüncələrini ifadə etdikləri məqam, sufizm ideyalarını sərbəstcəsinə dilə gətirdikləri məkan idi. Bəzən isə təsəvvüf poeziyası nümunələrində xərabat özündə mövcudatı əks etdirir. Z.Quluzadə bu barədə yazır: "Qəsidədə xərabat varlığın, kainatın rəmzi kimi çıxış edir..." [1]. Başqa sözlə, Xərabat insan ruhunun özünü azad hiss etdiyi hər yer, hər mühit ola bilər. Bu, ruhun var olduğu bədən, ariflər məclisi və ya gözəlliklər aləmidir. Sufi şairlərə görə, Tanrı sevgisilə çırpınan, ilahi eşqlə dolu hər aşiqin qəlbi bir xərabat guşəsidir. Bu barədə görkəmli alim Ç.Sasaninin də fikirləri də maraqlıdır: "Gah xərabat, gülüstan şəkillərində təcəssüm edən təbiət şairin fikrincə bütün xasiyyətlərilə insan vücudunda iştirak edir."[2] Xaqani daha bir qəzəlində yenə məstlik və xərabat anlayışlarının vəhdətini göstərən bədii simvolikanı işə salır.

هر شب به سیر کویش از کوچهٔ خرابات
نعره زنان برآیم یعنی که مست اویم[3]

(Hər gecə xərabat küçəsindən onun məhəlləsini seyrə çıxarkən fəqan edərək gəlirəm, yəni, onun sərxoşuyam). Biz bu beytdə təsəvvüf simvolikasının bütün xüsusiyyətlərini görə bilirik. Şair O deyərkən zərrələrin qovuşmağa can atdığı bütövü, ilahi qaynağı, eşqinin sərməstlik verdiyi Haqqı nəzərdə tutur. Xaqani bu sətirləri ilə xərabatın dolğun təyinatını vermiş olur. Şairin buradakı izah və təsvirində xərabat Onun varlığını dərk etmək istəyənlərin, Yaradandan gəlib Yaradana qayıtmaq üçün saflaşmağa çalışanların, bu yolda Tanrı sevgisiylə "sərxoş" olanların məclisinin qurulduğu məhəllədir. O məhəllənin müsafir və sakinləri isə xərabat əhlidir ki, bu ifa-

[1] Кули-заде З.А. Из истории Азербайджанской философии VII-XVI вв.Баку,Азернешр,1992, s.188

[2] Sasani Ç. Orta əsrlər Azərbaycan poeziyasında naturalist ədəbi-fəlsəfi fikir. Bakı-2007s.175

[3] https://ganjoor.net/khaghani/divankh/ghazalkh/s.236 29.08.18



www.SID.ir

dəyə də təsəvvüf ədəbiyyatında tez-tez rast gəlinir. Təsəvvüf şeirində saqinin missiyası mühüm əhəmiyyət kəsb edir. O, ilahi eşqlə çırpınan qəlbləri Haqqa doğru yönləndirən hikmət sahibi olaraq qəbul edilir. Bu barədə oxuyuruq: “saqi – irşad sahibi, mürşidi-kamil, pir, şeyxdir ki, müridə, Haqq yolçusuna ilahi elm və hikmət, mərifət öyrədir, Tanrı sevgisi təlqin edir.”[1] Məhz elə bu səbəbdən şairlər əsasən fikirlərini saqiyə müraciətlə dilə gətirirlər. Xaqani şeirində də bu halı çox müşahidə edirik. Onun şeirlərinin birində saqi obrazının daha fərqli və maraqlı tərzdə təqdimini görürük:

*Mey bir Günəşdir - nursaçan, büllur camı - asiman,*
*Saqi əlisə şərqdir, yarın dodağı qərb olar.*[2]

Xaqani bu beytdə yenə öz fərqliliyini ortaya qoyur. “Vacibül-vücuda” qarşı olan güclü sevgini simvolizə edən mey aləmi işıqlandıran günəşə bərabər tutulur. Hikmət sahibi bir mürşidin rəmzləşdirilmiş obrazı olan saqi isə Şərqlə eyniləşdirilir. Çünki Şərq Günəşin doğduğu səmtdir. Günəşin Şərqdə doğub Qərbdə batması hadisəsi şairin qüdrətli qələmi ilə uğurlu bir şəkildə təsəvvüfi nöqteyi-nəzərdən dəyərləndirilmişdir. Burada dodaq isə Günəşin qürub etdiyi yer olaraq verilir. Deməli ilahi eşq mürşidin vasitəsilə ruha çatdırılır. Belə ki, təsəvvüf poeziyasında dodaq ruhu simvolizə edir. Qeyd etmək lazımdır ki, burada meyin Günəş adlandırılması təsadüfi deyil. Belə ki, Günəş vəhdətin simvolu hesab olunur. Dodağın isə zərrəyə bənzədildiyinə təsəvvüf ədəbiyyatında rast gəlmək mümkündür. Beləliklə, burada söhbət həm də ilahi başlanğıcın nurunun onun zərrələrini, yəni, aşiqləri ilahi eşqlə aydınlandırmasından gedir. Daha əvvəl də bəhs etdiyimiz kimi, Xaqani təsəvvüf şairi olmamasına rəğmən sufizm ideyalarına və sufi poeziyasına dərindən bələd idi. İran alimi Z.Səccadi də özünün “İrfan və təsəvvüfün qaynaqları” adlı əsərində bunu xüsusi qeyd etmişdir:

"حتی شاعران غیر صوفی، مانند : خاقانی ونظامی، اصطلاحات صوفیانه را در شعرآورده اند، مانند: خرابات مغان، می مغان، پیر ازرق پوش، خرقه، صوفی، فقر، فنا، خرقهً شیخانه؛ همچنین به نام چند تن ازصوفیه در آثار خود اشاره کرده اند." [3]

[1] Y.Babayev, Təriqət ədəbiyyarı: sufizm, hürufizm.Bakı, 2007, s.48.
[2] Xaqani Şirvani, Seçilmiş əsərləri. Bakı, “Lider nəşriyyat”, 2004,s.143
[3] دکتر سید ضیاءالدین سجادی،مبانی عرفان وتصوف،تهران،1372 s.103



Archive of SID
www.SID.ir

(Hətta Xaqani və Nizami kimi sufi olmayan şairlər də xərabat, mey, mavi geyimli qoca (müdrik sufi), xirqə, sufi, fəğr, fəna, şeyxlik xirqəsi kimi sufi istilahlarını şeirlərinə gətirmişlər, o cümlədən sufi şəxsiyyətlərdən bir neçəsinin adına öz əsərlərində işarə etmişlər.)

İranlı tədqiqatçının da qeyd etdiyi kimi, Xaqani yaradıcılığında təsəvvüf simvolikasına kifayət qədər yer verilib. Məsələn,

بر در فقر آی تا پیش آیدت سرهنگ عشق
گوید ای صاحب خراج هر دو گیتی اندر آ[1]

(Fəqrin qapısına gəl ki, eşqin keşikçisi belə deyir: ey sahib, hər iki dünyanın xəracını çıxar ver.)

Şair "iki aləmin xəracı" deyərkən, insanın öz əməlləri haqqında hesabat verməsinə işarə edir. Paxıllıq, yalan, qeybət, acgözlük, təkkəbbür kimi mənfi cəhətlərdən uzaq olub ədalət, qənaət, xeyirxahlıq, humanizm prinsipləri ilə yaşayan kəslərin bu haqq-hesabdan üzüağ çıxması fəğr qapısından keçməsi deməkdir və onlar Haqq sevgisi ilə nurlandırılan aşiqlik yoluna qədəm qoya bilərlər. Həm də aşiqləri istiqamətləndirən "eşq sərhəngi"nin yəni hikmət sahibi olan mürşidin vasitəsilə. Xaqani yazır:

با عقل پای کوب که پیری است ژنده پوش
بر فقر دست کش که عروسی است خوش لقا[2]

(Tapdanıb məhv olmuş bir ağılla üst-başı yırtıq bir qocadırsa (müriddir), əl açan fəqr üçün gözəl üzlü gəlindir.)

Bu sətirlər Həzrəti Məhəmməd peyğəmbərə həsr olunmuş nət şeirindəndir. Xaqani Allahın rəsulunu tanımaq üçün kamil ağıla, nurlu qəlbə sahib olmağı vacib hesab edir. Şairin fikrincə, onun mədh obyekti Haqq yoluna qədəm qoyub fəqr məqamı ilə sınanan, nəfsdən uzaq, daxili pak insan üçün xoş simalı dilbər qədər mükəmməl gözəllikdədir. Şairin fəqr məqamını sufi poeziyasında sıx-sıx rast gəlinən "pir" obrazıyla yanaşı işlətdiyini görürük.

فقر است پیر مائده افکن که نفس را

[1] https://ganjoor.net/khaghani/divankh/ghasidekh/s.1
[2] https://ganjoor.net/khaghani/divankh/ghasidekh/s.5



www.SID.ir

بر آستان پیر ممکن درآورم[1]

(Fəqr - süfrə açan (Tanrı lütfü nəzərdə tutulur) mürşiddir ki, qarşıma çıxan bu piri-mürşidin qapısı önündə nəfəsimi dərirəm).

Haqq aşiqini düzgün yola yönləndirən "pir" adlandırılan bu müdrik rəhbər ona Allahın mərhəmət və lütfündən pay almaqda kömək edir.

### *Xaqani yaradıcılığında "xirqə" anlayışı*

Xaqani bir intibah şairi olaraq insanın kamilliyi məsələsinə xüsusi önəm verir. Təsəvvüf simvolikasında "xirqə" anlayışı da xüsusi yerə malikdir. Əsasən sufi dərvişlərin geyindiyi, sadə yun parçadan hazırlanan bu geyim də özündə sufi mövqeyini və düşüncəsini daşıyan təsəvvüf elementidir. Klassik poeziyada xirqə bir növ ruhun zahiri örtüyünü simvolizə edir. Y.E.Bertelsin üzə çıxarıb mətnini hazırladığı və tədqiqatına daxil etdiyi "Mirati-üşşaq" adlı təsəvvüf terminləri lüğətində bu obraz haqqında kiçik də olsa şərh yer almışdır:

" خرقه ظاهر وجود را گویند و بدن را نامند و بر افناء رسوم بشری هم اطلاق کنند. "[2]

(Vücudun zahirinə deyirlər və bədəni bu cür adlandırırlar. Yoxluq məqamında bəşəri qayda-qanunlardan azad olurlar.)

İzahatdan da belə aydın olur ki, xirqə nəfsdən təmizlənmiş bir ruhun paltarıdır. Onu geymək yalnız təsəvvüf yolundakı müridlərə nəsib olur. Mürid bu şərəfə irfan sahibi olan mürşidi tərəfindən layiq görülərək öz iradəsi və mənəvi bütövlüyünə görə mükafatlandırılmış olur. Xaqani xirqə simvoluna qəsidələrində kifayət qədər yer vermişdir. Bu qəsidələrdən bir neçəsinə nəzər yetirək:

خرقه شکافان ذوق بی‌دف و نی در سماع
جبه فشانان شید تابع قانون دف[3]

(Zövqdən xirqə yırtanlar dəfsiz, neysiz "səma" halındadırlar. Nurlanmanın təsirilə rəqs edənlər dəfin qanununa (ritminə) tabedirlər.)

Şair burada bir sufi dərvişin düşdüyü halları təsvir edir. Təsəvvüfdə ilahi nurdan payını alıb daxili eşq ilə dolan sufi aşiqlər buna rəqs halında nail olduqları üçün

[1] https://ganjoor.net/khaghani/divankh/ghasidekh/s.149
[2]Бертелсь Е.Э. Суфизм и суфийская литература. М осква, 1965, s.147
[3] https://ganjoor.net/khaghani/divankh/ghetekh/s.223



Archive of SID
www.SID.ir

ilahi vəcdin təsirindən əyinlərindəki cübbə və xirqəni yırtırlar. Diqqət yetirdiyimiz beytdə şair məhz buna işarə edir. Sufiliyi şərtləndirən xirqə amilinin iştirak etdiyi daha bir qəsidəyə diqqət edək. Xacə Nəsrəddin İbrahim Arif Gəncəyiyə həsr olunmuş mərsiyədə oxuyuruq:

خضر ارچه حاضر است نیارد نهاد دست
بر خرقه‌های او که ز نور آفریده‌اند[1]

(Xızr hüzurunda olsa da, onun nurdan yaradılmış xirqələrinə əl vurmadı.)

Şair burada da xirqənin nurlanma ilə bağlılığından yararlanmışdır. Xirqə də təsəvvüfün xanəgah və səma kimi digər amilləri qədər sufi üçün ilahi nura boyanmaqda, həqiqətə, Haqqa qovuşmaqda iştirak edən vacib şərtlərdəndir. Xaqaninin yeri gəldikcə, vurğuladığı məsələ məhz bundan ibarətdir.

### *Xaqani "xof" və "reca" halları haqqında*

Təsəvvüfdə insanın mənəvi yüksəliş və kamilləşmə uğrunda keçdiyi hallardan biri "reca"dır. Ədəbiyyatşünas A.Rüstəmova "reca" mərhələsini "aşiqin-salikin Haqqa çatmaq yollarındakı mücadilələrindən biri" hesab edir.[2] Haqq aşiqi üçün bu mərhələ ruhən, mənən qüclənmə, qüdrətə sahib olma mərhələsidir. Bu mənəvi güc və qüvvəti ona Allahın rəhmətini qazanması, daxilən ümidlənməsi verir. Təsəvvüfdən bəhs edən əsərlərdə "reca" termini əsasən "xof" adlı digər bir sufi halı ilə əlaqəli işlənilir. Beləliklə, həm ümid, həm də qorxu kamillik yolunda aşiqdə olması vacib sayılan xüsusiyyətlər, keçilməsi mühüm olan hallardır. Xaqani qəsidələrinin birində yazır:

*Gəzmişik "Qorxu-rica" aləmini şövqün ilə,*
*Görürük biz səni, sən isə xəbərsizsən hələ.*[3]

Bu beytlər bir şeyxülislama ithaf olunmuş mədhiyyədəndir və burada "xof" ilə "rica" istilahları şairin öz məmduhunu tərifləmə məqamında iştirak edir. Sufizm görüşlərinə görə bu anlamlar, daha dəqiq desək, aşiqin düşməli olduğu hallar arasında müəyyən bir tarazlıq olmalıdır. Təsəvvüfdə "xof" və "rica" bir quşun qoşa qana-

[1] https://ganjoor.net/khaghani/divankh/ghetekh/ s.149
[2] Rüstəmova A. Seçilmiş əsərləri. II c., Bakı, "Elm", 2014, s.619
[3] Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004, s.168



Archive of SID
www.SID.ir

dına bənzədilir. Sufilər, bunlardan birinin dərəcəsi az, digəri çox olarsa, imana və sevgiyə zaval gələcəyi qənaətindədirlər. Xaqani dövrünün mütərəqqi və hərtərəfli bir mütəfəkkiri kimi bütün bunlara yaxşı bələd olduğundan təsəvvüfün nisbətən çox hallandırılan istilah və məfhumlarından öz əsərlərində geniş istifadə etmişdir.

بر زخم‌های جانم هم درد و هم دوائی
در نیمه راه عقلم هم خوف و هم رجائی[1]

(Vücudumdakı yaralara həm dərd, həm də dərmansan. Ağlımın yarı yolunda həm "xof"um, həm də "recam"san.)

Xaqani bu qəzəldə haqqında bəhs etdiyimiz həmin təsəvvüf hallarının tarazlıq keyfiyyətindən faydalanaraq onu digər iki məfhumla qarşılaşdırır. Dərd və dərman anlayışları ilə. Bildiyimiz kimi, "dərd" sözü farscada "ağrı" mənasını verir. Qəzəl qəhrəmanı öz sevgi obyektini həm canında daşıdığı yaraların ağrısı, həm də dərmanı adlandırır. Bunun davamında isə onu sufi təriqətindəki xof və ricaya bərabər tutur. Şair birinci misradakı ümumiləşdirməni sonrakı sətirə gətirərək aşiqin öz sevdiyinə qarşı münasibətdə qorxu və ümid hisslərini eyni anda yaşadığını ifadə etmiş olur.

Xaqaninin təsəvvüf anlayışında "gül" məfhumu

Şairin əsərlərində tez-tez rast gəlinən digər bir obraz da gül obrazıdır. Təsəvvüf şeirində geniş işlənən bu simvolik məfhum daha çox sima ilə əlaqəli olur. Başqa sözlə, "gül" təbiətin insan xilqətində yenidən doğuluşudur, o həm də Yaradanın insana bəxş etdiyi lütfüdür. Xaqani qəzəllərinin birində deyir:

بی‌عشق ز خاقانی چیزی نگشاید
بی‌وصل گل، از بلبل آواز نخواهند[2]

(Xaqani eşq olmadan heç nə yaratmaz. Gülün vəsli olmadan bülbüldən cəhcəh vurması istənilməz.) Şair hər yaradılışın əsasında eşqin olduğunu, ilahi rəhmət və Tanrı istəyi olmadan heç nəyin hasilə gəlmədiyini vurğulayır. Yenə də "gül" obrazının sevgi, lütf və rəhmət rəmzi kimi çıxış etdiyinin şahidi oluruq. Şairin deyimincə, "gül" elə eşqin özüdür. O olmazsa, vurğunu olan bülbül birdəfəlik susar. Çünki, eşq yoxdursa, yaradılış da yoxdur. Xaqaninin əsl vurğulamağa çalışdığı məqam budur. Onun bir intibah şairi kimi, eşqin varlığına böyük önəm verdiyini, yara-

[1] https://ganjoor.net/khaghani/divankh/ghazalkh/sh346
[2] https://ganjoor.net/khaghani/divankh/ghazalkh/sh101



Archive of SID
www.SID.ir

dılan hər şeydə Yaradanı görə bilməyi təlqin etdiyini bütün yaradıcılığı boyu izləmək olar. Xaqaninin əsərləri ümumilikdə bir sufi şairin ədəbi irsi qədər təsəvvüfi xarakter daşımasa da, təsəvvüf simvolikası baxımından zəngindir. İranlı tədqiqatçı M.Mədənkənin fikrincə, Xaqani təsəvvüf və irfanın nəzəri tərəflərinə yaxşı bələddir. Lakin bildiklərini praktik olaraq tətbiq etməmişdir. O yazır:

" خاقانی بیشتر یک "معلم عرفان" است تا "عارفی واقعی" وعرفان او یک عرفان نظری است نه عملی"[1]

“Xaqani daha çox əsl arifliyinin və elminin əməli deyil, nəzəri irfandan ibarət olduğu bir irfan müəllimidir”. İranlı alimin bu qənaətə gəlməsinə səbəb, daha əvvəl də vurğuladığımız kimi, Xaqaninin sufizm, irfan elmi kimi sahələrdə dərin biliyə malik olmasıdır. Xaqaninin ərəbcə şeirlərinin tədqiqi ilə məşğul olan prof.İ.Həmidov bu barədə yazır: “Xaqani Şirvani irsi ilə tanış olanlar, onu öyrənənlər etiraf edirlər ki, şairin işlətdiyi obrazlar sistemi, zəngin bədii ifadə vasitələri, ibarələr, elmi-fəlsəfi və dini istilahlar onun dilini anlamaqda çətinlk törədir. Bu səbəbdən Xaqaninin əsərlərinə yazılan şərhlər çoxdur.”[2] Şairin istifadə etdiyi təsəvvüf ədəbiyyatına aid rəmz və ifadələr çoxluq təşkil edir. Maraqlı olduğu qədər də mürəkkəb olan bu rəmzlər sistemi tədqiqatçıya yeni yaradıcılıq və fəaliyyət üfüqləri açır, desək yanılmarıq.

## *Nəticə*

Tarixən mövcud olan bir çox fikir cərəyanları kimi, sufizm də yayılma və inkişafına görə ədəbi şəxsiyyətlərə borcludur. Ümumiyyətlə, sufizm ideyaları bir çox sənətkarın ictimai- fəlsəfi fikirlərini dilə gətirməsində bir vasitə rolunu oynamışdır. Biz araşdırmamızı Xaqaninin ən çox müraciət etdiyi sufizm istilahları və onun ümumiyyətlə bu dini-fəlsəfi fikir cərəyanı barədəki təsəvvürləri ətrafında aparmışıq. Geniş dünyagörüşü, dərin mütaliəsi, nəhayət sufi ədəbiyyatı ilə yaxından tanışlığı onun yaradıcılığına güclü təsir göstərərək, ədəbi irsinin qavranmasını bir qədər qəlizləşdirmişdir. Sufi şairin şeirdə demək istədiyini daha yaxşı dərk etmək üçün göstərilən istilahlar haqqında anlayışa sahib olmaq lazımdır. Sufiliyin nəfsi tərk etmək, aza qa-

[1] http://www.ensani.ir/fa/content/163955/default.aspx s.11 28.08.18

[2] Həmidov İ. Xaqani Şirvani, Ərəbcə şeirləri (filoloji tərcümə). Bakı, “Parlaq imzalar” 2017,s.26



Archive of SID

www.SID.ir

ne olmaq kimi ilkin şərtlərini yaxşı bilən sənətkar qəlbin zənginliyi məsələsini önə çəkərək yaradıcılığı boyu irəli sürdüyü tövsiyələrini də bu fikir ətrafında qurmuşdur. Belə qənaətə gəlmək olar ki, Xaqani Şirvani yaradıcılığının daşıdığı təsəvvüf simvolikası özünün məna və məzmun rəngarəngliyi, bədii-estetik tutumu, elmiliyi, dini-irfani məsələləri əks etdirməsi və s. baxımdan tədqiqat üçün olduqca maraqlı materiallarla zəngindir. Bu sahədə elmi araşdırmaların az olması göstərir ki, Xaqani irsinin bədii-semantik siqlətini, obrazlılığını, ondakı poetik ifadə tərzinin rəmzlərlə bağlılığını açmaq, şairin əsərlərinin irfani-təsəvvüfi simvolikasını düzgün şərh etmək üçün yeni tədqiqat işləri aparılmalıdır.

## ***Ədəbiyyat***

1. Babayev Y. *Təriqət ədəbiyyarı: sufizm, hürufizm*, Bakı, Nurlan, 2007.
2. Həmidov İ. *Xaqani Şirvani, Ərəbcə şeirləri* (filoloji tərcümə), Bakı, Parlaq imzalar, 2007.
3. Xaqani Şirvani. *Seçilmiş əsərləri*. Bakı, Lider nəşriyyat, 2004.
4. Kəndli-Herisçi Q. *Xaqani Şirvani (həyatı, dövrü, mühiti)*, Bakı, Elm, 1988.
5. Köprülü M.F. *Türk Edebiyatında ilk mutasavvıflar*, İstanbul, ALFA, 2016.
6. Rüstəmova A. *Seçilmiş əsərləri*, II c., Bakı, Elm, 2014.
7. Sasani Ç. *Orta əsrlər Azərbaycan poeziyasında naturalist ədəbi-fəlsəfi fikir*, Bakı, Elm, 2007.
8. Səccadi, Seyid Ziyauddin, *Məbani İrfan və təsəvvüf,* Tehran, 1372 h.q.
9. Ашурбейли С. *Государство Ширваншахов*, Баку, Элм, 1983.
10. Бертельс Е.Э. *История персидской и таджиксокй литературы*, Избранные труды. Т. 1. Москва, Издательство восточной литературы, 1960.
11. Бертелсь Е.Э. *Суфизм и суфийская литература*, Москва, Издательство, Наука, 1965.
12. Кули-заде З.А. *Из истории Азербайджанской философии VII-XVI вв. Баку*, Азернешр,1992.
13. Рзакулизаде С.Д. *Общественно-политические и философские взгляды Хагани Ширвани,* Баку, Издательство АНА ССР, 1962.
14. https://ganjoor.net/khaghani/divankh/ 23.08.18
15. http://www.ensani.ir/fa/content/163955/default.aspx 28.08.18



Archive of SID

www.SID.ir

**Dr. Konul Hajiyeva**

### *The Embodiment of the Symbolism of Sufism in the Creations of Khagani*
*(abstract)*

*The article discusses the influence of Sufism on literature and the role of poets in spreading the teachings of Sufism. The attitude of the 12th century Azerbaijani poet Khagani Shirvani on the subject of Sufism and his views on this religious and philosophical doctrine are considered. In addition, the poet's ideas about the Sufi image were studied, the analysis of the Sufi images he created and, at the same time, the relationship of Khagani to the well-known Sufis in the history of Sufism was investigated. The analysis of the samples taken from the works of Khagani is based on the judgments of the Sufi views of the poet. Attention was paid to Sufi terms and features of their use in Khagani verses. During the study, examples were given of the poetic embodiment of the Sufi symbolism, which were discovered in the works of the poet. The poetic characteristics of Sufi symbolism in the artistic and aesthetic representation of Khagani and the literary and philosophical characteristic of Khagani's works in artistic expressions are of paramount importance. Analyzes and studies allow us to conclude that the ideas of Sufism played the role of a means of expressing the social and philosophical views of many creative people. Despite the fact that he was not just a Sufi poet, Khagani was a creative person with a literary heritage, rich in Sufi ideas. He was fully aware of Sufism, the Sufi way of life, and Sufi terms. As knowing the basic conditions of Sufism, he emphasized the richness of the soul of a creative person, and it can also be noted that he built his recommendations throughout the entire creative way around this very idea. The symbolism of Sufism in the works of Khagani reflects the diversity of meaning and content, artistic and aesthetic content, scientific nature, religious and spiritual problems and thus it can be concluded that from this point of view it is rich in interesting materials for research.*

**Keywords:** *Khagani, sufism, poet, sufi, symbolism*

Archive of SID

***Др. Кёнюль Гаджиева***

### *Воплощение символики суфизма в произведениях Хагани*
*(резюме)*

*В статье рассматривается влияние суфизма на литературу и роль поэтов в распространении учения суфизма. Рассмотрено отношение азербайд-*



www.SID.ir

*жанского поэта XII века Хагани Ширвани на предмет суфизма и его взгляды на это религиозно-философское учение. Кроме того, были исследованы идеи поэта относительно суфийского образа, анализ созданных им суфийских образов и в то же время было исследовано отношение Хагани к известным суфиям в истории суфизма. Анализ образцов, взятых из произведений Хагани, основан на суждениях суфийских взглядов поэта. Было уделено внимание суфийским терминам и особенностям их использования в стихах Хагани. Во время исследования были приведены примеры поэтического воплощения символики суфизма, которые были обнаружены в творчестве поэта. Поэтическая характеристика суфийской символики в художественно-эстетическом представлении Хагани и литературно-философское особенность сочинения Хагани в художественных выражениях имеют первостепенное значение. Анализы и исследования позволяют сделать вывод о том, что идеи суфизма сыграли роль средства выражения общественно-философских взглядов многих творческих людей. Несмотря на то, что он был не просто суфийским поэтом, Хагани был творческим человеком, обладавшим литературным наследием, богатым суфийскими идеями. Он был полностью осведомлён о суфизме, суфийском образе жизни и суфийских терминах. Как знающий основные условия суфизма, он подчеркивал богатство души творческого человека, и можно также заметить, что свои рекомендации на протяжении всего творческого пути он строил вокруг именно этой идеи. Символика суфизма в творчестве Хагани отражает разнообразие смысла и содержания, художественно-эстетическое содержание, научность, религиозно-духовные проблемы и таким образом можно прийти к выводу, что с этой точки зрения она богата интересными материалами для исследований.*

***Ключевые слова:*** *Хакани, суфизм, поэт, суфи, символика*

*Məqalə redaksiya daxil olmuşdur: 28.08.2018.*
*Təkrar işləməyə göndərilmişdir: 02.10.2018*
*Çapa qəbul edilmişdir: 02.12.2018*



Archive of SID
www.SID.ir